***Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Röya Tağıyevanın ispan dilində nəşr olunmuş "Azərbaycan xalçaları" kitabı Argentina oxucularını Azərbaycan xalçaçılıq sənəti ənənələri ilə tanış edib. Azərbaycan Respublikasının Argentinadakı səfirliyinin təşəbbüsü, La Plata Dövlət Universiteti nəzdində fəaliyyət göstərən "Azərbaycanşünaslıq" kafedrasının təşkilatçılığı ilə Buenos-Ayres şəhərində yerləşən Şərq İncəsənəti Muzeyində geniş ictimaiyyətə təqdim olunan bu əsər UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ Siyahısına daxil edilmiş mədəniyyətimizin nadir incisi Azərbaycan xalçasının dünya miqyasında tanınmasına böyük bir töhfədir.***

# "Azərbaycan xalçaları" kitabı Argentinada təqdim olunub

Təqdimat mərasimində muzeyin direktoru Rosio Boffo çıxışı zamanı "Azərbaycan xalçaları" kitabının Qərblə Şərqin qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni irsinin təşviqi baxımından ispandilli auditoriya üçün əvəzsiz mənbə olacağına və oxucular tərəfindən maraqla qarşılanacağına əminliyini ifadə edib.

"Azərbaycanşünaslıq" kafedrasının əlaqələndiricisi, professor Paulo Botta Azərbaycanın Argentinada təbliği məqsədilə kafedra tərəfindən ölkəmizin tarixi, mədəniyyəti və ədəbiyyatı haqqında kitabların ispan dilinə tərcümə olunub çap edildiyini,




bu kitabın da bu layihə çərçivəsində ərsəyə gəldiyini deyib.

Azərbaycan Respublikasının Argentinadakı səfiri Rəşad Aslanov isə ölkəmizin təkcə ticarət yolu deyil, eyni zamanda, dəyərlərin və mədəniyyətlərin mübadiləsi üçün geniş bir dəhliz olan qədim "İpək Yolu" üzərində yerləşməsinin Azərbaycan xalçaçılıq sənətinin formalaşması və inkişafında müstəsna rol oynadığını bildirib. R.Aslanov bu sənətin ənənə və sirlərinin xüsusi qayğı ilə saxlanılaraq nəsildən-nəslə ötürüldüyünü qeyd edib və 2010-cu ildən etibarən Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ siyahısına daxil edildiyini vurğulayıb.

Şərq xalçaçılıq sənəti üzrə mütəxəssis olan Aqustina Leiva naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə fərqlənən Azərbaycan xalçaçılıq məktəbləri haqqında danışıb və Azərbaycan xalçalarını bir xalqın tarixi inkişaf yolu, adət və ənənələri, bədii irsi və mədəniyyəti haqqında dolğun təsəvvür formalaşması baxımından qiymətli mənbə kimi səciyyələndirib.

Qeyd edək ki, bu kitab ömrünü xalça sənətimizin elmi araşdırılmasına və təbliğinə həsr etmiş, bu sahədə ərsəyə gətirdiyi fundamental əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş professor Röya Tağıyevanın ispandilli oxucularla ilk görüşüdür.

Daha əvvəl ingilis, rus, türk, macar, polyak, yapon dillərində nəşr olunan, Azərbaycan xalça sənətinin tarixi, ənənələri, Nizami



Gəncəvi obrazlarının Azərbaycan xalçalarında əksini, qloballaşma dövründə xalça sənətimizin durumunu əks etdirən əsərlər Röya xanımın hələ gənclik illərindən başlayaraq, ustadı, Xalq rəssamı Lətif Kərimovdan öyrənib inkişaf etdirərək genişləndirdiyi, xalça sənətimizin bədii ifadə dili haqqında tədqiqatların kitab təcəssümüdür. Təsadüfi deyil ki, R.Tağıyeva hər zaman bu sənətə gəlişinə və xalça adlı zəngin bir aləmin sirlərini araşdırmaqda ona yol açan Lətif müəllimin adını böyük fəxarət və minnətdarlıq hissi ilə yad edir.

Milli kimliyimizin nümunəsi, tariximizin aynası olan xalçamızın kompozisiyalarının, rəng həlli və naxışlarının varlığımızın obrazlı təcəssümü və dünyagörüşümüzün sehrli ilmələrdə ifadəsi olduğunu hər zaman vurğulayan Röya xanımın əsas məqsədi Azərbaycan xalçası adının özəlliklərini və fərqli xüsusiyyətlərini dünyaya çatdırmaqdır.

Məlumat üçün bildirək ki, Röya Tağıyeva xalça sənətinə həsr olunmuş 100-dən çox elmi əsərin, konsepsiyanın, layihənin müəllifidir. Bunlardan monoqrafiyaları, kitabları, elmi-sənədli filmlərin ssenarisini, dərslikləri və məcmuələri göstərmək olar. O cümlədən "Azərbaycan dekorativ tətbiqi sənəti" (1986), "Azərbaycan süjetli xalçaları" (1988), "Nizaminin xalça obrazları" (1998), "Nizami obrazları xalçalarda" (1991), "Azərbaycan xalçası" (1999), "Lətif Kərimov fenomeni" (2006), "Azərbaycan xalçası məişətdə" (2006), "Azərbaycan Xalçası" (macar və ərəb dillərində, 2011) "Əbədi odlar yurdu. Azərbaycan xalça ənənəsi" (ingilis dilində, 2012), "Nizami obrazları xalçalarda" (miniatür kitab, 2013) adlı kitabları, "Azərbaycan Xalçası Ensiklopediyası"nın I və II cildi (Azərbaycan dilində, 2015-2016), "Azərbaycan xalçası" ensiklopediyası (ingilis dilində, 2017–ci il) qeyd edilməlidir.

***Hazırladı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***